COP29
Baku
Azerbaijan

ASCO

Asiya və Avropa arasında ən qısa körpünüz






ASCO-nun rəsmi web saytı:
**www.asco.az**

ASCO

www.asco.az

Facebook

YouTube

Telegram

X

LinkedIn

# HAQQIMIZDA

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin əsası 1858-ci il mayın 21-də "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin yaradılması ilə qoyulub.
22 oktyabr 2013-cü ildə Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən, ölkədə fəaliyyət göstərən iki böyük donanma – Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanması birləşdirilərək yenidən təşkil edildi. Sərəncamla "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı.
Hazırda fəaliyyətini ASCO brendi ilə davam etdirən şirkətimiz tərkibindəki müxtəlif tipli 200-dən çox gəmi ilə Xəzərdə ən böyük donanmaya malikdir. Bu gün ASCO-ya məxsus gəmilər Xəzər dənizi ilə yanaşı, beynəlxalq sularda da uğurla istismar edilir.

# TARIXIMIZ




1858 "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin yaradılması ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin əsasının qoyulması

"Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin Bakıda mexaniki zavodunun bünövrəsinin qoyulması

1873 Dünyada ilk neftdaşıyan "Aleksandr" barjının Xəzərdə istismara verilməsi

1878 Dünyada ilk tanker "Zərdüşt"ün Xəzərdə istismara verilməsi

Gəmilərin kadrlara tələbatını ödəmək üçün Bakı Dənizçilik siniflərinin fəaliyyətə başlaması

1903 İlk daxili yanma mühərrikli "Vandal" gəmisinin Xəzər dənizində istismara verilməsi

İlk reversivli iki mühərriklə çalışan "Delo" gəmisinin Xəzər dənizində istismara verilməsi

1949 "Azərdənizneft" birliyinin tərkibində "Üzən vasitələr" idarəsinin yaradılması ilə Xəzər Dəniz Neft Donanmasının təməlinin qoyulması

Xəzər Dəniz Gəmiçiliyinə məxsus gəmilərin dünya sularına çıxması

Xəzərdə ilk bərə keçidinin inşası (Türkmənbaşı) və bərə gəmilərin fəaliyyətə başlaması

1969-1987 Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə hər il 20-30 gəmi olmaqla, ümumilikdə 400-dən çox gəminin tikintisi və donanmanın sürətli inkişaf dövrü

Nəqliyyat donanması üçün yeni tankerlərin, universal quru yük gəmilərinin və bərələrin alınması və tikintisi

1997-2010 Xəzərdən kənarda fəaliyyət göstərən gəmilərin Xəzərə gətirilməsi

2003-2011 Tanker donanmasının yenilənməsi

2004 Xəzərdə ən böyük 13,000 ton dedveytə malik ilk tankerin ("Prezident Heydər Əliyev" tankeri) istismara verilməsi

Bərə donanmasının yenilənməsi

Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilməsi ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin yaradılması

Xəzərdən kənarda fəaliyyətin bərpa edilməsi

Donanmaların yenilənməsi (24 ədəd yeni gəminin istifadəyə verilməsi)

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rebrendinqi və fəaliyyətini ASCO adı altında davam etdirməsi

2019 Azərbaycanda inşa edilən ilk tankerin ("Laçın" tankeri) istismara verilməsi

2021 Azərbaycanda inşa edilən ilk Ro-Pax/Bərə tipli gəminin ("Azərbaycan" gəmi-bərəsi) istismara verilməsi

2021 – Xəzərdə ilk gəmi-muzey, dünyada isə ilk tanker-muzeyin ("Suraxanı") istifadəyə verilməsi

ASCO istiqrazlarının tədavülə buraxılması

Xəzərdən kənarda fəaliyyətin genişləndirilməsi məqsədilə 5 ədəd "Aframax" tipli tankerin istismara verilməsi

Xəzərdən kənarda fəaliyyətin genişləndirilməsi məqsədilə iki ədəd "Handysize" tipli quru yük gəmisinin ("Xocalı", Murovdağ") istismara verilməsi



# ASCO-NUN ƏSAS FƏALİYYƏT SAHƏLƏRİ

## Yükdaşımalar
Dəniz Nəqliyyatı Donanması







## İxtisaslaşmış ofşor xidmətlər
Xəzər Dəniz Neft Donanması







## Gəmi təmiri və tikintisi
"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodu,
"Bibiheybət" Gəmi Təmiri Zavodu







## Təhsil və təlim
Azərbaycan Dövlət Dəniz Akademiyası,
Azərbaycan Dənizçilik Kolleci, Təlim Tədris Mərkəzi







## Quru yük daşımaları marşrutu

Türkiyə / İtaliya / Yunanıstan / Rumıniya
Gürcüstan / Azərbaycan / Qazaxıstan
Türkmənistan / İsrail / Çin / ABŞ
Avstraliya / Meksika / Kolumbiya / Ekvador

## Bərə və Ro-Ro daşımaları marşrutu

Azərbaycan / Qazaxıstan
Türkmənistan

## Maye yük daşımaları marşrutu

Azərbaycan / Qazaxıstan
Türkmənistan / Rumıniya / Bolqarıstan
Gürcüstan / Türkiyə / Yunanıstan






# ƏTRAF MÜHİT



# Fəaliyyətimizin bütün aspektlərində ətraf mühitə təsiri minimuma endirmək məqsədimizdir

ASCO-da ətraf mühitə mümkün zərərli təsirlərin sıfıra endirilməsi, o cümlədən tullantıların və emissiyaların həcminin minimal səviyyədə saxlanılması, su və enerji resurslarından qənaətlə istifadə olunması istiqamətində planlı şəkildə və davamlı tədbirlər görülür. Bu sahədə fəaliyyətimizi ölkə qanunvericiliyinin, Beynəlxalq Dəniz Təşkilatının tələblərinə, eləcə də gəmiçilik sahəsində mövcud olan beynəlxalq konvensiyalara uyğun təşkil edirik.





**ASCO-da dayanıqlı inkişaf siyasətinin davamlı yenilənməsi məqsədilə Ekoloji Sosial İdarəetmə (ESG) əlaqələndirmə qrupu təşkil olunub.**

## ESG-nin Tədbirlər Planına daxildir:

Emissiyaların azaldılması məqsədilə gəmilərdə konstruktiv dəyişikliklərin və innovasiyaların tətbiqi



Gəmilərin sahil enerji xətlərindən istifadəsinin təmin edilməsi



Gəmilərin korma hissəsində xüsusi istiqamətləndiricilərin quraşdırılması





Gəmilərdə "EcoPilot" elektron müdaxilə sisteminin tətbiqi



Təmirə gələn gəmilərin pərlərinin cilalanması və sualtı hissələrinin tez-tez təmizlənməsi vacib hesab olunur. Gələcəkdə isə gəminin gövdəsinin təmizlənməsində robot sisteminin tətbiqi də nəzərdə tutulur.

2027-2030-cu illərdə bir neçə gəminin metanol yanacağına keçid üçün retrofit olunması nəzərdə tutulur.



2030-2040-cı illərdə alternativ yanacaqlardan istifadəyə tədricən keçid nəzərdə tutulur. Bununla da, 2008-ci illə müqayisədə emissiyaların 70-80%-dək azaldılması hədəflənir. 2040-2050-ci illərdə isə 0 emissiyalı alternativ yanacaq və texnologiyaların tam tətbiqinə keçid planlaşdırılır ki, bu da 0 emissiya həddinə çatmaq deməkdir.





Hava ilə sürtünmə sistemi gəmilərin alt hissəsində mikro qabarcıqlar yaratmaqla, gəminin gövdəsi ilə dəniz suyu arasındakı müqaviməti azaldır. Bu sistem yanacaq sərfiyyatı və emissiyaların həcminin azaldılmasına xidmət edir.



Gələcəkdə gəmilərdə küləklə dəstəklənən hərəkətverici sistemlərin quraşdırılması ilə biz 0 emissiya həddinə daha tez nail olacağımızı hədəfləyirik.



Mümkün gəmilərdə "Flettner" rotorunun quraşdırılması

Gəmilərdə yanacaq səmərəliliyi istiqamətində fəal iştirak edən gəmi heyəti üzvlərinin mükafatlandırılması



Alternativ enerji mənbəyi kimi günəş panellərinin istifadəsinin tətbiqi



Ekoloji cəhətdən təmiz olan elektrik nəqliyyat vasitələrinə tədricən keçid




Şirkətdaxili su istehlakının optimallaşdırılması



İşçilərə sosial dəstəyin təkmilləşdirilməsi



International Organization for Standardization

Emissiyaların inventarlaşdırılması ilə bağlı ISO 14060 və digər standartların tətbiqi, müvafiq sertifikatlaşdırılmanın aparılmasının təmin olunması və s.

Emissiyaların rəqəmsal panelə çıxarılaraq izlənməsi sisteminin yaradılması






# DONANMALARIN YENİLƏNMƏSİ PROQRAMI

ASCO-da donanmaların yenilənməsinə xüsusi diqqət ayrılır. Köhnə və daha çox yanacaq sərfiyyatı olan gəmilər tədricən istismardan çıxarılır və müasir texnologiya ilə təchiz edilmiş, daha az yanacaq sərf edən gəmilər istismara verilir. Bu da enerji səmərəliliyinə, yanacaq sərfiyyatına, emissiyaların azalmasına müsbət təsir göstərir. Bu istiqamətdə son 10 ildə 30-dan çox yeni gəmi donamanın tərkibinə daxil edilib.

# 2014-2024-CÜ İLLƏRDƏ İSTİFADƏYƏ VERİLƏN MÜASİR GƏMİLƏR

## Tankerlər

"Nəsimi" (2014)
"Laçın" (2019)
"Kəlbəcər" (2021)
"Akademik Xoşbəxt Yusifzadə" (2022)
"Zəngilan" (2024)



## Quru yük gəmiləri



"Üzeyir Hacıbəyli" (2014)
"Natəvan" (2014)
"Rəsul Rza" (2016)
"Şair Sabir" (2016)
"Şair Vaqif" (2016)

"Hüseyn Cavid" (2016)
"General Aslanov" (2016)
"Qafur Məmmədov" (2016)





"Xocalı" (2024)
"Murovdağ" (2024)

## "Handysize" tipli quru yük gəmiləri



## "Ro-Pax" tipli bərə gəmiləri



"Azərbaycan" (2021)
"Zərifə Əliyeva" (2022)

## Lövbər daşıyan təchizat yedək gəmisi



"Lənkəran" (2014)

## Təchizat gəmiləri

"Sumqayıt" (2014)
"Qubadlı" (2017)
"Mərdəkan" (2017)





"Şüvəlan" (2017)
"Türkan" (2018)
"Zirə" (2018)
"Suqovuşan" (2019)

## Liman-yedək gəmisi



"SOCAR-1" (2014)

## Sərnişin gəmiləri



"Üfüq" (2016)
"Zəfər" (2016)
"Turan" (2016)

## Kiçik su tutumlu xidməti katerlər



"ASCO-1" (2023)
"Tərtərçay" (2023)
"Həkəriçay" (2024)





## Hazırda donanma üçün müasir gəmilərin tikintisi aparılır.

**1 ədəd**
"Ro-Pax" tipli bərə gəmisi

**3 ədəd**
kiçik su tutumlu xidmət-yedək kateri

**3 ədəd**
50 nəfərlik sərnişin gəmisi

**4 ədəd**
dalğıc gəmisi (biri hibrid mühərrikli olmaqla)




Dənizin 60 metr dərinliyində işləmək üçün nəzərdə tutulan hibrid mühərrikli dalğıc gəmisi

*Azərbaycan Respublikası Beynəlxalq Dəniz Təşkilatının “Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında” Konvensiyasına (MARPOL) və bu Konvensiyanın “Havanın gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında” VI Əlavəsinə qoşulub. Bu Konvensiyanın tələblərinə əsasən hələ 2012-ci ildən ASCO gəmilərin enerji səmərəliliyinin idarə olunması sahəsində davamlı tədbirlər həyata keçirir.*

Yeni tikilən gəmilərdə Enerji Səmərəliliyinin Konstruktiv Əmsalına (Energy Efficiency Design İndex) dair tələblər nəzərə alınır.

Ümumi tutumu 400 ton və yuxarı olan bütün gəmilər “Gəminin enerji səmərəliliyinin idarə olunması planı” ilə təmin edilib.

2018-ci ildən ümumi tutumu 5000 tondan yuxarı olan gəmilərdə yanacaq sərfiyyatı haqqında məlumatların toplanmasına dair tələb qüvvəyə minib və “Gəminin enerji səmərəliliyinin idarə olunması planı”na bu məlumatların toplanmasının metodologiyasını əhatə edən II hissə əlavə olunaraq hər növbəti il qeyd edilən gəmilərin yanacaq sərfiyyatına dair məlumatlar Dövlət Dəniz və Liman Agentliyinə təqdim edilərək Beynəlxalq Dəniz Təşkilatına ötürülür.

2023-cü ildən ümumi tutumu 400 ton və daha çox olan gəmilər üçün Mövcud Gəmilərin Enerji Səmərəliliyi Əmsalına dair tələblər tətbiq edilməyə başlayıb.

Ümumi tutumu 5000 ton və daha çox olan gəmilər üzrə Enerji Səmərəliliyi Əmsalı əsasında karbon qazının ayrılmasının intensivliyinin azaldılmasına dair texniki tələblər, o cümlədən illik istismar nəticəsində Karbon İntensivliyinin İstismar Əmsalı (CII) və onun hesablanma metodologiyasını əhatə edən “Gəminin enerji səmərəliliyinin idarə olunması planı”na bu məlumatların toplanmasının metodologiyasını əhatə edən III hissə əlavə olunub.

31 gəmiyə CII əhatə edən “Gəminin enerji səmərəliliyinin idarə olunması planı”na III hissə verilib və ümumi tutumu 5000 ton və daha yuxarı olan gəmilərin 2023-cü ildə yanacaq sərfiyyatına dair məlumatlar, habelə müvafiq gəmilərin “Mövcud Gəmilərin Enerji Səmərəliliyi Əmsalı” (EEXI) və “Enerji Səmərəliliyinin Konstruktiv Əmsalı”na, “Karbon İntensivliyinin İstismar Əmsalı”na (CII) dair məlumatlar Dövlət Dəniz və Liman Agentliyinə təqdim edilərək Beynəlxalq Dəniz Təşkilatına ötürülür.




***Enerji səmərəliliyinin idarə olunmasına yönəlmiş bütün bu tədbirlər nəticəsində ASCO tərəfindən emissiyaların ~20%-dək azaldılmasına nail olunub.***

# 2050-ci ilədək 0 emissiya hədəfinə çatmaq üçün ASCO-nun STRATEJİ PLANI

**2024**
**2027-ci illər**

Köhnəlmiş və istismarı effektiv olmayan gəmilərin donanmadan çıxarılması

Donanmanın yenilənməsi, eləcə də yanacaq sərfiyyatı baxımından daha səmərəli və müasir gəmilərin alınması və ya tikintisi yolu ilə emissiyalarda azalma

**2027**
**2030-cu illər**

Metanol yanacağı və tam elektriklə işləyən gəmilərin tikintisi və ya alınması, mövcud gəmilərin retrofit olunması

**2030**
**2040-cı illər**

Bütün donanmalarda alternativ yanacaqlardan istifadəyə keçid. IMO-nun hədəfinə uyğun olaraq, 2008-ci illə müqayisədə emissiyaların 70-80%- dək azaldılması

**2040**
**2050-ci illər**

Metanol yanacağı və tam elektriklə işləyən gəmilərin tikintisi və ya alınması, mövcud gəmilərin retrofit olunması



# SAHİL ƏMƏLİYYATLARINDA EKOLOJİ BAXIŞ

## Ekoloji təmiz avtomobillərdən istifadənin təşviqi

Bununla əlaqədar, ilkin mərhələdə ASCO-nun inzibati binasının yeraltı dayanacağında elektrik avtomobillər üçün 2 ədəd şarj etmə stansiyası istifadəyə verilib. Həmçinin ASCO-nun hər iki zavodu və donanmasında da hər struktur idarəyə ilkin olaraq 1 ədəd (ümumilikdə 4 ədəd) şarj etmə stansiyası quraşdırılıb.



## Alternativ enerji

"Bibiheybət" Gəmi Təmiri Zavodunda 162 ədəd günəş paneli quraşdırılıb. Dəniz Nəqliyyatı Donanmasında külək turbininin quraşdırılması layihəsinə başlanılıb.



## Gəmilərin təmirində ekoloji həssaslıq

Gəmilərin fəaliyyəti nəticəsində ətraf mühitə təsirlərin azaldılması məqsədilə, təmir zamanı gəmilərin gövdələri təmizlənir, onların əsas və köməkçi mühərrikləri müasir, daha az tullantılı, ətraf mühitə daha az təsirə malik mühərriklərlə əvəzlənir.

**2022-2023-cü illərdə**

180 gəminin gövdəsi təmizlənib

33 köməkçi mühərrik alınaraq quraşdırılıb

7 əsas mühərrik alınaraq quraşdırılıb



# TULLANTILARIN İDARƏEDİLMƏSİ



## TƏHVİL VERİLƏN TULLANTILAR

- **Qida tullantıları** $m^3$ – 1930.38 (2023)
- **Məişət tullantıları** $m^3$ – 5866.83 (2023)
- **İstismar tullantıları** $m^3$ – 123.03 (2023)
- **Neftli döşəməaltı lyal sular** $m^3$ - 5276.22 (2023)
- **Çirkab sular** $m^3$ – 170946.46 (2023)
- **Neft qalığı (şlam)** $m^3$ - 216.4 (2023)

## TƏKRAR EMALA GÖNDƏRİLƏN TULLANTILAR

- **Qara metal** - 655,037 ton (2023)
- **Əlvan metal** - 2.75 ton (2023)
- **Plastik** - 1.324 ton (2023)
- **İşlənmiş kağız** - 1.285 ton (2023)



# TƏMİZLİK VƏ YAŞILLAŞDIRMA İŞLƏRİ



## AĞACƏKMƏ AKSİYALARI

Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ilə əlaqədar ASCO-nun "Bibiheybət" Gəmi Təmiri Zavodunun ərazisində eldar şamı və zeytun olmaqla 1236 ədəd, Müşfiqabad qəsəbəsində isə eldar şamı və zeytun olmaqla, ümumilikdə 1250 ədəd ağac əkilib.



## İMƏCLİKLƏR

ASCO-nun struktur idarələrində hər il iməcilik keçirilir. İməcilik zamanı müxtəlif təmizlik işləri görülür, yol kənarlarının quru otlardan və torpaqlardan təmizlənməsi, torpaq ərazilərin abadlaşdırılması və s. işlər görülür.




# KORPORATİV SOSİAL MƏSULİYYƏT TƏDBİRLƏRİ



## "SURAXANI" GƏMİ-MUZEYİ



Biz Korporativ Sosial Məsuliyyət tədbirlərimiz çərçivəsində də ekologiyaya qayğının vacibliyinə xüsusi diqqət ayırırıq. Belə layihələrimizin əsas ünvanı "Suraxanı" gəmi-muzeyidir.
"Suraxanı" ölkəmizin ilk elmi-texniki muzeyidir və onun onilliklər ərzində neft və neft məhsulları daşımış gəmidə təşkili xüsusi əhəmiyyət daşıyır. Muzey hazırda dünyada aktual olan texniki obyektlərin təkrar istifadəsinin, yəni revitalizasiya prosesinin bariz nümunəsi olmaqla, ətraf mühitin qorunmasına ASCO-nun bir töhfəsidir.
Bu muzeylə təkcə gəmiçilik irsimizə işıq salmır, həm də dənizin flora və fauna aləminin qorunmasının önəminə diqqət çəkir, dənizin dibindən aşkarlanmış artefakt və tarixi əşyaları "Xəzərin irsi" kimi layihələrimizdə nümayiş etdiririk.

## DƏNİZ KÖNÜLLÜLƏRİ



"Suraxanı" gəmi-muzeyi və "Gənc Könüllülər" İctimai Birliyinin bazası əsasında yaradılan "Dəniz könüllüləri" ASCO tərəfindən keçirilən ekoloji aksiyalarda iştirak etməklə, şirkətimizin bu sahədə fəaliyyətinə könüllü dəstək verirlər.

## "GƏMİÇİLİK, GƏNC İXTİRAÇILAR VƏ İNNOVASİYA" MÜSABİQƏSİ



Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində elan etdiyimiz "Gəmiçilik, gənc ixtiraçılar və innovasiya" müsabiqəsi gənc nəslin ekoloji şüurunun inkişaf etdirilməsi və innovativ ideyalarının dəstəklənməsinə xidmət edir. Müsabiqəyə təqdim olunmuş layihələrin əksəriyyəti yaşıl gələcək üçün mükəmməl ideyaları özündə birləşdirir.

## "ART PLAST" LAYİHƏSİ – "DAHA AZ PLASTİK, DAHA ÇOX HƏYAT: TƏMİZ DƏNİZ ÜÇÜN BİRLİKDƏ!"



ASCO-nun ətraf mühitin mühafizəsinə həssas münasibətini "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən "Art Plast" layihəsində də görmək mümkündür. Bu layihə çərçivəsində hazırlanmış qağayı, suiti, balıq və dəniz atı installyasiyalarının hər biri sənətin və ekologiyanın harmoniyasını təcəssüm etdirməklə, plastik tullantıların təhlükələrinə diqqət çəkir. Layihə çərçivəsində istismardan çıxarılmış qayıqlardan gül qablarının hazırlanması isə təkrar emal prosesinə həssaslığımızın sadəcə bir hissəsini nümayiş etdirir.

www.asco.az

Telegram

Facebook

X

YouTube

LinkedIn

ASCO
1858